# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 136-cı kitabı çapdan çıxıb

"Biz eyni zamanda bərpaolunan enerji mənbələrinə investisiyalar cəlb etdik. Sadəcə, onu qeyd edim ki, Günəş və küləyin olması bizim üçün böyük bir vəsilədir. Bakılılar gecə-gündüz əsən küləkdən bəzən şikayətlənirlər. Təxminən ildə 300 gün külək əsir, amma indi o, Xəzər dənizindən nəinki təmiz hava, həm də təmiz enerji gətirəcək. Ona görə də düşünürəm ki, bir neçə ildən sonra biz dediklərimin şahidi olacağıq. Daha əvvəl qeyd etdiyim kimi, artıq başlayan və layihələndirilən təşəbbüslər var. Biz mədən yanacağından "yaşıl enerji"yə keçid baxımından lider ölkələr sırasında olacağıq. Elektrik enerjisinə olan tələbatımızı bərpaolunan enerji mənbələri ilə təmin etməyi və ehtiyacı olanlara qaz ixrac etməyi planlaşdırırıq".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 136-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilmiş beynəlxalq forumda sualları cavablandırarkən söyləyib. Forumun materialları ilə bu kitabda tanış olmaq mümkündür.




Çoxcildliyin 136-cı cildində toplanmış materiallar 2024-cü ilin aprel-may aylarını əhatə edir.

Yeni kitaba Azərbaycan Prezidentinin "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya və Mədəniyyətlərarası Dialoq Forumundakı nitqinin, Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində çıxışının mətnləri daxil edilib.

Nəşrdə Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşünə, iki ölkə arasında sənədlərin imzalanmasına, dövlət başçılarının mətbuata birgə bəyanatlarına, habelə Füzuli və Ağdam rayonlarına səfərlərinə dair informasiyalar verilib. Kitabda Azərbaycana səfərə gəlmiş Bolqarıstan Prezidenti Rumen Radev, Belarus Prezidenti Aleksandr Lukaşenko ilə keçirilmiş görüşlər, imzalanmış sənədlər, birgə bəyanatlar haqqında da məlumat yer alıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Almaniyaya işgüzar səfərinə dair materiallarla, Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxışının mətni ilə də tanış ola bilər.

Prezident İlham Əliyev may ayında Füzuli, Şuşa və Laçın rayonlarına səfər edib, aparılan bərpa işləri ilə tanış olub. Dövlətimizin başçısı Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub, Şuşada 1-ci yaşayış kompleksinin açılış mərasimində iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüb, həmçinin Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb, "Azərenerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" kiçik su-elektrik stansiyalarının açılış mərasimində iştirak edib. Yeni kitabda bütün bunlar haqqında ətraflı məlumat verilib.

"Azərnəşr" tərəfindən buraxılan 136-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Azərbaycan.- 2024.- 30 avqust (№ 186).- S.3.